**Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqdakı nitqindən***

**Bakı, 9 noyabr 2015-ci il**

## Örnək soydaşlarımız

# “Möhtəşəm Bakı” ABŞ-ın Konqres Kitabxanasında



***❐ “Uzun müddət ölkəmizdən kənarda yaşasam da, Azərbaycanla bağlı olan bütün məlumatları izləyirdim. Məhz elə 2003-cü ilin payızından sonra Xarici İşlər Nazirliyində dövlət başçımızın iştirakı ilə Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin dörd və ya beş müşavirəsinin materialları ilə də tanış olmuşdum. Cənab Prezident həmin müşavirələrdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması üçün diplomatların və diaspor təşkilatlarımızın qarşısında çox böyük vəzifələrin dayandığını bildirdi.***

Yadımdadır, 2014-cü ilin iyul ayında keçirilən müşavirədə dövlət başçımız bizi – xaricdə yaşayan azərbaycanlıları səfirliklərimizin ətrafında sıx birləşməyə, diplomatlarımızla birlikdə fəaliyyət göstərməyə çağıraraq demişdi: “Əlbəttə, hesab edirəm ki, bizim dövlət siyasətimiz burada öz nəticəsini göstərmişdir və bilirəm ki, indi əksər hallarda diaspor təşkilatları səfirliklərlə bir yerdə işləyirlər, çalışırlar, tədbirlər keçirirlər. Hesab edirəm ki, bu, bizim gücümüzü artırır, eyni zamanda, diaspor nümayəndələri də özlərini daha rahat hiss edirlər. Çünki bilirlər ki, möhkəm, güclü Azərbaycan dövləti onların arxasında dayanıb. Onlar da bilirlər ki, Azərbaycan dövləti öz vətəndaşlarını daim müdafiə edir və edəcəkdir”.

Bu fikirləri Azərbaycan–Finlandiya “Dostluq” Cəmiyyətinin fəxri üzvü, Avropanın bir sıra ölkələrində tanınmış rəssam kimi qəbul edilən, Nyu-Yorkda, ABŞ-ın Konres kitabxanasının qrifi ilə öz əsərlərindən ibarət “Möhtəşəm Bakı” adlı kitab-albomu ərsəyə gətirərək, Birləşmiş Ştatlardakı ziyalılara və xarici diplomatlara təqdim etmiş soydaşımız Çingiz Abbasov dedi. Həmsöhbətim bildirdi ki, mənim bu adda kitab hazırlamağımın və yaşadığım Finlandiyadan kənara çıxaraq, öz kitabımı məhz dünyanın ən güclü dövlətinin ən böyük kitabxanasının qrifi ilə nəşr etdirməyimin əsas səbəbi məhz cənab Prezidentin Azərbaycan diaspor təşkilatlarının təmsilçilərinə etdiyi çağırışlar olmuşdur.

Mən rəssamam və fikirləşdim ki, həmin çağırışlara cavab olaraq neyləyə bilərdim? Təbii ki, hər gün, daha çox işləməli və Azərbaycanın beynəlxalq aləmdə təbliğ olunmasına töhfələr verməli idim. Bu sahədə nələrə nail olmuşamsa, ölkə ictimaiyyəti də bilir, xarici ölkələrdəki dostlarımız və həmkarlarımız da.

“Möhtəşəm Bakı” albomunda paytaxtımızın ən görməli yerlərini əks etdirən 102 əsərim toplanıb. Həmin əsərləri görən əcnəbi rəssamlar sanki müəllifi – yəni məni unudaraq, Bakının gözəlliyinə heyran olurlar”.

Xatırladaq ki, ABŞ-da nəşr olunan “Möhtəşəm Bakı” kitab-albomu Xəzər dənizi, Xəzərin sahilində Bakının qədim və dinamik inkişaf edən bir şəhər kimi təsvirlərindən ibarətdir. Albom Finlandiya ictimaiyyəti tərəfindən də maraqla qarşılanıb.

... Çingiz Abbasov haqqında hələ 1992-ci ilin mart ayında, atası – o zamankı Politexnik İnstitutun dosenti, texnika elmləri namizədi mərhum Arif Abbasovdan eşitmişdim. "Dalğa" qəzeti redaksiyasına , bizim iş yerimizə gələn Arif müəllim “Oğlum Helsinkidən bir qəzet göndərib, görün, Azərbaycan hökuməti xalqa necə yalanlar sırıyırmış?” – deyə mənə bir qəzet vermişdi. “Helsinki sonomat” (“Helsinki xəbərləri”) qəzetinin 27 fevral 1992-ci il tarixli sayında “Azərbaycanın Xocalı şəhərində yüzlərlə insan öldürülüb” adlı xəbər və meşənin kənarına səpələnmiş meyitlərin fotosu verilmişdi. Azərbaycan rəsmiləri isə hələ martın 2-də də deyirdilər ki, Xocalıda iki nəfər ölüb.



Sonralar Çingiz Abbasovla şəxsi tanışlığımız da oldu. Mən onun təkcə tanınmış rəssam deyil, həm də öz dünyası, öz fəlsəfəsi olan, ürəyində Azərbaycan boyda bir sevgi, məhəbbət yaşadan əsl vətənpərvər insan olduğu qənaətinə gəldim.

Qeyd edək ki, Çingiz Abbasov ABŞ, Avropa, xüsusən, Finlandiyada fəaliyyət göstərən bir sıra rəsm qalereyaları ilə əməkdaşlıq edir. Onun rəsmlərinə dünyanın bir çox şəxsi və korporativ kolleksiyalarında, həmçinin tanınmış alman kolleksioneri Reynhold Vürtun muzeyində, Finlandiya Prezidenti Sauli Niinistonun kolleksiyasında rast gəlmək olar.

Onun “Çovkan”adlı rəsm işləri Bakıda yeni açılmış Media Mərkəzində nümayiş olunub. Bundan başqa, o, I Dünya müharibəsində iştirak etmiş əfsanəvi “Vəhşi diviziya”nın qəhrəmanı Azərbaycan Süvari Alayına həsr etdiyi “üçlük” adlanan (триптих) böyük həcmli rəsm əsərinin müəllifidir.

Çingiz öz əsərlərini ilk dəfə 1990-cı illərdə Finlandiyada sərgiləyib, daha sonra isə Avropanın digər ölkələrində nümayiş etdirib. O, Qəbələ Beynəlxalq İncəsənət Sərgisi, Nyu Yorkda "Artekspo" və "İtaliya Florence Biennalesi" kimi dünyanın bir çox beynəlxalq sərgilərində iştirak edib. Rəssamın əsərlərinə Finlandiyanın dövlət başçısının, "Reinhold Würth", həmçinin dünyanın bir çox özəl və dövlət rəsm kolleksiyalarında rast gəlinir. Bundan başqa, “Hameelinnan Kaupunkiuutuset” (“Hyameenlinna xəbərləri”) qəzetində Azərbaycan rəssamı Çingiz Abbasovun əsərlərindən ibarət sərgiyə həsr edilmiş “Bakı ilə tanışlıq” sərlövhəli məqalə dərc olunub.

Məqalədə qeyd edilir ki, Sankt-Peterburqda rəssamlıq təhsilinin yüksək səviyyəsi və çoxillik iş təcrübəsi Çingizin əsərlərində öz əksini tapır. Rəssam deyib: “Möhtəşəm Bakı”kitab-albomu ABŞ Konqresi kitabxanasının kataloquna daxil edilib. Həmin nəşr azərbaycanlı müəllifin bu kitabxanaya daxil edilmiş belə formatlı və belə məzmunlu ilk kitabıdır”.




“Möhtəşəm Bakı”ya ön söz yazan tarix üzrə elmlər doktoru, professor, Azərbaycan Tibb Tarixçiləri Birliyinin prezidenti, Beynəlxalq Tibb Tarixi Cəmiyyəti (ISHM) İdarə Heyətinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazmaların və əski çap kitablarının tərcüməsi və çapa hazırlanması şöbəsinin müdiri Fərid Ələkbərli nəinki Çingiz Abbasovun özü və əsərləri haqqında, hətta onun Avropaya gedən yolu, sənətkar kimi püxtələşdikdən sonra Avropadan Amerika Birləşmiş Ştatlarına qədər uzanan yaradıcılıq əlaqələri barədə də əhatəli söz açır.

Çingiz Abbasov əlavə edir: “ Anamın dayısı – Şuşada doğulub böyümüş Mirfəttah Musəvi Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Əksinqilabla Mübarizə Təşkilatının üzvü kimi erməni – bolşevik xəyanətlərinə və denikinçilərə qarşı ciddi mübarizə aparıb və onu qətlə yetiriblər. Atam -- əslən Şuşadan olan Arif Abbasov Azərbaycan dövləti Xocalıya şəhər statusu verdiyi tarixdən etibarən xeyli müddət həmin şəhərin yenidən tikilməsində iştirak edib. Ona görə də mən -- həmin insanların vətənpərvərlik ənənəsini yaşadan rəssam olaraq, təbii ki, dövlətimizin və xalqımızın dəstəyi ilə Azərbaycan dövlətinə və ölkəmizə lazım olan səviyyədə xidmət etməyə çalışıram və həmin xidməti edirəm”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***